**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№363/7** **21 fevral 2024-cü il**

# İcazəli auditoru olmayan auditor təşkilatlarının fəaliyyətinin monitorinqi barədə

Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 8.12-ci "İcazəli auditoru olmayan auditor təşkilatlarının fəaliyyətinin monitorinqi" bəndinin icrasını təmin etmək məqsədilə, Auditin təşkili və hesabatlılıq idarəsi (V.Cavadov) və Audit sistemində icra intizamı və daxili nəzrət şöbəsi (Z.Almazov) tərəfindən aparılan monitorinqin nəticəsinə dair təqdim edilmiş məlumatı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditin təşkili və hesabatlılıq idarəsi (V.Cavadov) tərəfindən icazəli auditoru olmayan auditor təşkilatlarının fəaliyyətinin monitorinqinə dair məlumat nəzərə alınsın (əlavə olunur).

2. Auditin təşkili və hesabatlılıq idarəsinə (V.Cavadov) tapşırılsın ki, bir həftə müddətində adları aşağıda qeyd edilən icazəli auditoru olmayan auditor təşkilatlarına öz namizədlərinin Palatanın auditor adı almaq üçün İmtahan Komissiyasına təqdim edilməsinə dair məktub-müraciət göndərilsin:

- "ADA AUDIT" məhdud məsuliyyətli cəmiyyəti (Direktor: Niftiyev Elçin Zülfüqar oğlu);
- "ARGENTUM AUDİT" MMC (Direktor: Əhmədbəyli Elturan Fizuli oğlu);
- "Brighter GC" MMC (Direktor: Xəlilli Elyaz İbrahim oğlu);
- "Chinar İnvestments and Consulting" MMC (Direktor: Quliyev Cabir Məhəmməd oğlu);
- "FİNTRUST PARTNERS" MMC (Direktor: Əliyev Mirzə Nəzər oğlu);
- "İ AND E GROUP" MMC (Direktor: Nağıyev Elvin Fikrət oğlu);
- "KPM Audit and Services" MMC (Direktor: Zamanlı Rəvanə Ayaz qızı);
- "Rasional Audit" MMC (Direktor: Seyidov Elfaq Eynur oğlu).

3. Bu qərarın 2-ci bəndində adları qeyd edilən auditor təşkilatlarının rəhbərlərinə tapşırılsın ki, bir ay müddətində auditor adı almaq üçün keçiriləcək imtahanlarda iştirak etmək üçün namizədləri barədə məlumatları Auditorlar Palatasının İmtahan Komissiyasına təqdim etsinlər.

4. Kadr hazırlığı idarəsinə (E.Behbudova) tapşırılsın ki, icazəli auditoru olmayan auditor təşkilatlarının namizədlərinin auditor adı almaq üçün keçiriləcək imtahanlarda qeydiyyatı və iştirakı ilə əlaqədar zəruri işlər həyata keçirilsin.

5. Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyətin idarə edilməsi idarəsinə (Q.Əhmədov) və Palatanın Şurası yanında Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi üzrə komitəyə (E.Əliyev) tapşırılsın ki, icazəli auditoru olmayan auditor təşkilatlarının fəaliyyətləri riskli hesab edilsin və onların növbədənkənar monitorinqlərə cəlb olunmasına dair təkliflərini hazırlayıb təqdim etsinlər.

6. Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinə (E.İbrahimov) tapşırılsın ki, bir ay müddətində "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununun 5-ci maddəsinə "auditor fəaliyyətinin həyata keçirilməsi üçün auditor təşkilatında əmək müqaviləsi ilə işləyən ən azı iki icazəli auditorun olmasına dair" dəyişiklik ediməsi barədə layihə hazırlanıb Palata Şurasının müzakirəsinə təqdim edilsin.

7. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, bu qərarın mətninin yuxarıda adları qeyd edilən auditor təşkilatlarına göndərilməsi təmin edilsin.

8. Bu qərarın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**